# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

Bakı şəhəri 28 dekabr 2016-cı il

**Azərbaycanda akademik qurum və ali təhsil müəssisələrində aparılan əhəmiyyətli elmi araşdırma və tədqiqatların dəstəklənməsinə yönəlmiş birgə layihələrin qrantlar yolu ilə maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elm-Təhsil İnteqrasiyası" məqsədli müsabiqəsinin (EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)) keçirilməsi haqqında**

## E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun (bundan sonra: "Elmin İnkişafı Fondu" adlandırılacaqdır) təşkil edərək keçirdiyi müxtəlif qrant müsabiqələrində akademik və təhsil müəssisələri kifayət qədər fəal iştirak edirlər. 2010-2015-cı illərdə Fond tərəfindən təşkil edilərək keçirilmiş 26 müxtəlif xarakterli müsabiqənin nəticələrinin statistik analizi göstərir ki, 444 qalib qrant layihəsinin 272-nin (ümumi sayın 61.26%-ni, onlara ayrılan maliyyə həcmi isə ümumi maliyyələşdirilmənin 74.45%-ni təşkil edir) rəhbərləri akademik qurumları, 129-nun (ümumi sayın 29.05%-ni, onlara ayrılan maliyyə həcmi isə ümumi maliyyələşdirilmənin 18.75%-ni təşkil edir) rəhbərləri isə 21 təhsil müəssisəsini (18 universitet, 2 təhsil akademiyası və 1 lisey olmaqla) təmsil edirlər. Adıçəkilən 444 layihə üzrə rəhbər və icraçıların ümumi sayının 65.57%-i (1234 nəfər) akademik, 23.59%-i (444 nəfər) isə ali təhsil qurumlarına aiddir.

Elmi tədqiqatların qrantlar yolu ilə maliyyələşdirilməsinin effektivliyi nəzərə alınmaqla, ölkənin akademik qurumları və ali təhsil müəssisələrində aparılan təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və innovasiya xarakterli əhəmiyyətli elmi araşdırma və tədqiqatların daha da yüksək səviyyədə və koordinasiya olunmuş şəkildə dəstəklənməsinə, elmi fəaliyyətin stimullaşdırılması və alimlərə əlavə yaradıcılıq imkanı yaradılmasına yönəlmiş layihələrin qrantlar yolu ilə məqsədli olaraq, bir elmi mövzu (problem) ətrafında müvəqqəti yaradılmış və akademik və ali təhsil qurumlarından olan alimlərin yaradıcı kollektivlər şəklində maliyyələşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Fondun Himayədarlar Şurası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə razılaşdırmaqla 2016-cı ildə

məqsədli "Elm-Təhsil İnteqrasiyası" müsabiqəsini (EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)) aşağıda göstərilmiş elmi prioritetlərə uyğun olaraq və müvafiq şərtlər daxilində

ELAN EDİR:

Müsabiqənin məqsədi:

Müsabiqə akademik və ali təhsil sistemindəki elmi-tədqiqat müəssisələrinin, institut va laboratoriyalarının, bölmə və mərkəzlərinin və digər uyğun strukturların elmi fəaliyyətini stimullaşdırmaq, modern elmi cihaz, avadanlıq və qurğularla təminatını təkmilləşdirmək, elmin ayrıca götürülmüş sahə və istiqamətlərinin davamlı inkişafını əlavə olaraq dəstəkləmək, kadr hazırlığını təmin etmək məqsədi ilə akademik və ali təhsil qurumlarından olan alimlərin müvəqqəti yaradılmış elmi-yaradıcı kollektivləri tərəfindən təqdim edilmiş fundamental və tətbiqi xarakterli layihələrin müxtəlif maliyyə həcmli qrantlar (hər layihə üçün 100 min manatadək) verilməsi yolu ilə maliyyələşdirilməsi məqsədi ilə keçirilir.

Bu tip layihələrin qrantlar yolu ilə maliyyələşdirilməsində mühüm məqsəd müxtəlif elm sahələrində yerinə yetirilən elmi-tədqiqat işlərinin (xüsusi olaraq, multidissiplinar araşdırmaların) dəstəklənməsi, qısa müddət ərzində rəqabət apara biləcək elmi nəticələrin alınmasına əlavə şərait yaradılmasıdır. Layihələrdə maliyyə (stimullaşdırıcı əmək haqqı) və maddi-texniki təminatla (cihazlar, qurğular və avadanlıqlar) yanaşı, paralel olaraq kadr hazırlığı (ezamiyyətlər yolu ilə) da nəzərdə tutulur.

Məqsədli xarakter daşıyan bu tip birgə layihələri akademiya və təhsil sistemindəki təşkilatlar və digər qurumlardan (laboratoriyalar, elmi-tədqiqat bölmələri və institutları, müəssisələri və b.) olan alimlər təqdim edə bilərlər. Müsabiqəyə təqdim edilən layihə həmin layihə üzrə rəhbər(lər)lə təmsil olunmalı və qurumun tabe olduğu yuxarı orqanın rəsmi təqdimatı olmalıdır (Azərbaycan Milli Elmlər Akademiyası təşkilatları üçün ən azı uyğun elm sahəsi üzrə müvafiq Bölmənin təqdimatı tələb olunur). Təqdimat formal olaraq yazılmamalı və təqdim olunan layihənin elmi-təcrübi əhəmiyyəti, gözlənilən nəticələri və elmin inkişafına verə biləcəyi töhfələr qısa, lakin dolğun şəkildə açıqlanmalıdır.

Layihələrin növləri və maliyyələşdirilmə həcmi:

- **fundamental və tətbiqi** xarakterli layihələr;
- **100 000 manatadək** maliyyə həcmli layihələr.

Təşkilatı dəstək:

- Azərbaycan Milli Elmlər Akademiyası;
- Azərbaycan Respublikasının Təhsil Nazirliyi.

Müsabiqədə iştirakın mühüm şərtləri:

- multidissiplinar tədqiqatlar üzrə təqdim olunmuş;
- tətbiqi xarakterli;
- ən müxtəlif akademik və təhsil qurumlardan olan alim və mütəxəssislər tərəfindən yerinə yetirilməsi planlaşdırılan eyni tədqiqat mövzuları üzrə təqdim olunmuş;
- beynəlxalq əməkdaşlıq çərçivəsində yerinə yetirilməsi planlaşdırılan;

- gənclərin və regionlardan olan alim və mütəxəssislərin iştirak etdiyi layihələrə elmi ekspertizanın nəticələri əsasında seçim zamanı üstünlük veriləcəkdir.

Əgər iddiaçı(lar) hal-hazırda Elmin İnkişafı Fondunun müsabiqələrinin qalibi olmuş layihələrdə iştirak edir(lər)sə (rəhbər və ya icraçı qismində), onun (onların) cari müsabiqədə iştirakına yol verilmir.

Müsabiqədə iştirak edən müvəqqəti yaradıcı kollektiv formalaşdırılarkən akademik və təhsil qurmlarında olan alimlərin sayında **paritet** gözlənilməlidir.

Ümumi say (rəhbərlər daxil olmaqla) **8 nəfərdən** artıq olmamalıdır.

Layihələrin icra müddəti bir qayda olaraq **1 ildən artıq** olmamalıdır.

Qrant iddiaçılarının nəzərinə çatdırılır ki, qrant layihəsi çərçivəsində elmi məqsədlər üçün tələb olunan əsas vəsaitlər (elmi cihazlar, avadanlıq və qurğular, elmi fəaliyyət üçün məmulatlar, ləvazimat və qeyri-maddi aktivlər və s.), iş və xidmətlər layihənin ümumi büdcəsinin 35%-dən artıq (vergi və rüsumlar daxil olmaqla) ola bilməz.

Müsabiqədə iştirak üçün müvafiq akademik və ali təhsil müəssisəsinin rəhbərliyinin təqdimatı tələb olunur və təqdimat kağız üzərində ayrıca olaraq Fonda verilməlidir.

Hər bir layihə akademik və ali təhsil müəssisəsindən olan **2 rəhbərlə** (əsas rəhbər və həm-rəhbər) təmsil olunmalıdır. Layihə qalib olduğu təqdirdə layihənin icrası ilə bağlı müvafiq Müqavilə əsas rəhbərlə bağlanılacaqdır.

Müsabiqənin prioritet istiqamətləri:

Elmi-tədqiqat layihələri Elmin İnkişafı Fondunun Təsnifatı üzrə müxtəlif elm sahələri və istiqamətlərini əhatə etməklə və layihənin təqdim olunduğu hər bir akademik və / və ya ali təhsil müəssisəsinin elmi prioritetlərini əsas götürməklə təqdim olunmalıdır. Digər tərəfdən, “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda (maddə 3) göstərilmiş prioritetlər üzrə təqdim edilən layihələrə də üstünlük veriləcəkdir. Elmin İnkişafı Fondu müsabiqəyə təqdim olunmuş layihələrin elmi ekspertizası işini və qalib layihələrin vaxtaşırı monitorinqini təşkil edəcəkdir.

Müsabiqənin keçirilmə müddəti:

- Müsabiqədə iştirak etmək üçün layihələr **2017-ci il 5 yanvar** tarixindən başlayaraq qəbul olunur;
- Müsabiqədə iştirak etmək üçün layihələrin qəbulu üçün son tarix **2017-ci il 28 fevral** saat 17:00-dır;
- Müsabiqənin nəticələrinin 2017-ci ilin 1-ci yarısında açıqlanması planlaşdırılır.

Layihələrin tərtibatı və təqdim olunması

2017-ci ilin yanvar ayından başlayaraq, bu müsabiqəyə layihələr Elmin İnkişafı Fondunun yaratdığı “e-QRANT”=“Qrant layihələrinin Elektron İdarəolunması Sistemi” vasitəsilə də təqdim edilə bilər. Bu sistem elektron-hökumət prinsipləri əsasında qurulmuşdur və “ASAN-İmza”dan istifadəni nəzərdə tutur. Cari müsabiqə üçün istisna və sonuncu dəfə olaraq layihələrin aşağıda göstərilən ənənəvi qaydada və / və ya “e-QRANT” yolu ilə təqdim edilməsinə şərait yaradılır. Nəzərə almaq lazımdır ki, “e-QRANT” sistemindən

istifadə cari və sonrakı müsabiqələrdə iştirakı xeyli sadələşdirir və sənədləşmə işinin həcmini azaldır.

Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün layihələrin verilməsi qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2010-cu il 25 iyun tarixli Q-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları"nda (http://sdf.gov.az) tanış olmaq olar.

Qrantların verilməsi üzrə müsabiqədə iştirak etmək üçün ərizə və müvafiq sənədlər (Microsoft Word formatında) Elmin İnkişafı Fondunun internet portalının (http://sdf.gov.az) "Qrant müsabiqələri" bölməsindən əldə edilə bilər.

Bütün layihələr, bir qayda olaraq, **Azərbaycan** (2 nüsxə) və **ingilis** (1 nüsxə) (xarici ekspertlərdən rəy alınması üçün) dillərində tərtib edilməlidir. Müşayiətedici materiallar (sənədlərin surətləri, zəmanət məktubları və b.) isə 1 nüsxədə təqdim olunur.

Layihələr üç formatda (kağız üzərində, elektron məlumatdaşıyıcılarına yazılmış şəkildə və elektron variantın elektron ünvana göndərilə bilməsi üçün elektron fayllar şəklində) aşağıdakı üsullarla təqdim olunmalıdır:

1. Müsabiqədə iştirak etmək üçün layihə rəhbəri tərəfindən imzalanmış ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların A4 formatlı ağ kağızda çap olunmuş variantını (Azərbaycan dilində 2 nüsxə, ingilis dilində isə 1 nüsxə) və elektron məlumatdaşıyıcılarına (flash card, CD, DVD və s.) yazılmış versiyasını birlikdə:
   - Elmin İnkişafı Fondunun icraçı direksiyasının ünvanına **(AZ-1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə)** (sifarişli üsulla) poçt vasitəsilə göndərmək yolu ilə:
   - və ya Elmin İnkişafı Fondunun icraçı direksiyasının yuxarıda göstərilən ünvanda yerləşən **ofisinə** həftənin iş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə (elektron-poçt göndərişi zamanı mümkün itmələrdən və adi poçt daşınması zamanı təsadüfi mexaniki zədələrdən yayınmaq üçün);
2. Müsabiqədə iştirak etmək üçün ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantını (Microsoft Word formatında elektron fayllarını) Elmin İnkişafı Fondunun **elektron-poçt ünvanına** (qrant@elmfondu.az) göndərmək yolu ilə (bu zaman elektron məktubun "mövzu" ("subject") hissəsində aşağıdakı yazılışdan istifadə olunmalıdır: "EİF/MQM/Elm-Təhsil-1-2016-1(26) - *Layihənin əsas rəhbərinin soyadı və adı - Elm sahəsinin adı*").

Ümumi şərtlər:

Ənənəvi kağız qaydasında təqdim olunan Layihənin elektron variantı olmadığı halda, həmçinin Microsoft Word formatında olan Formalara özbaşına düzəlişlər edildikdə layihə

birmənalı olaraq texniki ekspertiza mərhələsindən keçmir. **"e-QRANT" yolu ilə təqdim edilən layihələr isə bir qayda olaraq avtomatik şəkildə texniki ekspertiza mərhələsindən keçir.**

Ərizənin, ərizəyə əlavə olunan sənədlərin və digər müşayiətedici materialların elektron variantının kağızda olan variantına tam uyğun olmasına məsuliyyəti layihə rəhbər(lər)i daşıyır.

Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən qəti olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.

Müsabiqəyə təqdim edilmiş bütün layihələrin ideyasının obyektiv formada orijinal ifadəsi müəlliflik hüququnun obyekti kimi Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçiriləcəkdir.

Müsabiqədə iştirak etmək üçün ərizələrin və ərizəyə əlavə edilən müvafiq sənədlərin, Müsabiqələrin keçirilməsi Qaydalarının əldə olunması ilə bağlı problemlər yarandığı təqdirdə Elmin İnkişafı Fondunun icraçı direksiyası (AZ-1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə) ilə birbaşa əlaqə saxlanılması tövsiyə olunur.

Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, sənədlərin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə **məsləhət seminarlarının** (lazım gəldikdə, səyyar seminarlar olmaqla) keçirilməsi nəzərdə tutulmuşdur. Bu barədə əlavə məlumat Fondun internet səhifəsində dərc olunacaqdır. Seminarlarda iştirak təqdir olunur.

Əlaqə telefonu: *(012) 489-08-94*
Elektron-poçt ünvanı: *qrant@elmfondu.az*

**Elmin İnkişafı Fondunun icraçı direksiyası**